*Ağstafa:*

# Milli mətbuatın 140 illik yubileyi qeyd olundu

Ağstafa rayonunda "Yazıçılar" evində mətbuat işçilərinin peşə bayramı təntənəli şəkildə qeyd olundu. Mərasimdə rayon icra aparatının işçiləri, ziyalılar, idarə, müəssisə rəhbərləri və jurnalistlər iştirak edirdilər. Mərasimi giriş sözü ilə Ağstafa Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarov açaraq Azərbaycan mətbuatının keçmişinə nəzər saldı. O, mətbuatın ictimai-mədəni əhəmiyyətindən, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin bu sahədə rolundan danışdı. R.Tatarov qeyd etdi ki, 1875-ci il 22 iyul tarixində ilk dəfə "Əkinçi" qezetinin nəşrinə başlandı. Həmin



tarix milli mətbuatın yaranma günü kimi qeyd olunur. Azərbaycan mətbuatı şərəfli bir yol keçmişdir.

Ağstafa rayonunun yaranma tarixi 1990-cı illərə təsadüf etsə də, rayonda bütün sahələrdə olduğu kimi, mətbuata və mətbuat işçilərinə xüsusi hörmət və qayğı ilə yanaşılır, onların informasiya əldə etməsi üçün hər cür şərait yaradılmışdır. O qeyd etdi ki, ölkə Prezidenti cənab İlham Əliyevin mətbuat işçilərinə fəxri adların və mükafatların verilməsi barədə sərəncamında yerli rayon qəzeti — "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyevin də adı var. O, "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Bu mükafat bütün ağstafalılara verilən yüksək qiymətdir. Bu münasibətlə o İbrahim Əliyevi və bütün jurnalistləri peşə bayramları münasibəti ilə təbrik etdi.

Sonra söz "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyevə verildi. İbrahim Əliyev yüksək mükafata görə ölkə başçısına təşəkkürünü bildirdi. Onu da vurğuladı ki, Azərbaycanda KİV işçiləri daim dövlət qayğısı ilə əhatə olunur.

Digər çıxış edənlər də jurnalistikaya göstərilən qayğıdan danışdılar. Qeyd etdilər ki, KİV işçiləri dövlətçiliyin qurulması, inkişafı və möhkəmlədirilməsi yolunda ön sıralarda gedirlər. Dördüncü hakimiyyət sayılan mətbuat işçilərinin xidmətlərini nəzərə alaraq möhtərəm Prezidentimiz İlham Əliyevin sərəcamına əsasən onların mənzil şəritinin yaxşılaşması üçün dövlət hesabına binalar tikilərək ehtiyacı olanlara paylanır. Tədbirin sonunda jurnalistlərin bir qrupu Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırıldı.

**Vəli VƏLİYEV,**
**"Respublika".**